# Azərbaycan Qazaxıstana gəmi tədarükünün həyata keçirilməsində maraqlıdır

**Azərbaycan Qazaxıstana gəmi tədarük edilməsi kimi layihələrin tezliklə həyata keçirilməsində maraqlıdır. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel ilə görüşündə bildirib.**



Görüş zamanı Alim Bayel ötən və cari ildə baş tutan Qazaxıstan və Azərbaycanın dövlət başçılarının qarşılıqlı səfərləri faktiki olaraq ikitərəfli əməkdaşlığının yeni mərhələsini açdığını qeyd edib. Diplomat həmçinin 11 sənədin imzalandığı Qazaxıstan Baş nazirinin bu ilin iyun ayında Azərbaycana rəsmi səfərinin məhsuldarlığını da vurğulayıb. Qeyd edib ki, Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yolları arasında birgə müəssisənin təsis edilməsi, Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin (FORX) çəkilməsi ilə bağlı birgə müəssisənin yaradılması, habelə Qazaxıstan neftinin Azərbaycan vasitəsilə nəql həcmlərinin artırılması haqqında sənədlər xüsusilə böyük önəm daşıyır.

Öz növbəsində Mikayıl Cabbarov hazırkı qeyri-stabil geosiyasi vəziyyətdə Qazaxıstan-Azərbaycan iqtisadi əməkdaşlığının gücləndirilməsində maraqlı olduqlarını təsdiqləyib. Nazir Qazaxıstan istehsalı olan dəmiryol lokomotivlərinin Azərbaycana və Azərbaycan gəmilərinin Qazaxıstana tədarük edilməsi kimi layihələrin tezliklə həyata keçirilməsində ölkəmizin hazır olduğunu bildirib. Söhbət əsnasında o, Orta dəhlizin rəqəmsal inkişafının vacibliyinə, vahid pəncərə prinsipi ilə nəqliyyat-logistika sisteminin yaradılmasına diqqət çəkib. M.Cabbarov Qazaxıstanla Azərbaycanın həm Xəzər dənizi hövzəsində, həm də digər regionlarda neft-qaz layihələrində birgə iştirakının mümkünlüyünü nəzərdən keçirməyi təklif edib. Bundan başqa, nazir Qazaxıstanın dənli bitkilərin istehsalçısı və tədarükçüsü kimi etibarlı tərəfdaş olmasının vacibliyini qeyd edib.

Səfir A.Bayel Qazaxıstanla Azərbaycan arasında mədəni-humanitar və iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönələn bir sıra təşəbbüsləri də təklif edib.

Qeyd edək ki, 2023-cü ilin 5 ayının yekunlarına əsasən, Qazaxıstanla Azərbaycan arasında ticarət dövriyyəsi ötən ilin analoji dövrü ilə müqayisədə 50 faiz artıb (162,5 milyon dollardan 243,6 milyon dolların). 2023-cü ilin əvvəlindən Orta dəhliz (TXNM) üzrə daşımalar 64 faiz artaraq 1 milyon tondan çox təşkil edib. Qazaxıstan həmçinin Azərbaycana 300 milyon ABŞ dolları həcmində 100 mal mövqeyi üzrə ixracını artırmağa və ikitərəfli ticarətinin həcmini dövlət başçılarının tapşırığına uyğun olaraq 1 milyard dollar səviyyəsinə çatdırmağa hazırdır. Bundan başqa, cari ilin iyun ayından Qazaxıstanın və Azərbaycanın aviaşirkətləri tərəfindən yerinə yetirilən aviareyslərin say limiti həftədə 32-dən 42-dək qaldırılıb.

Azərbaycan.- 2023.- 30 iyul.- S. 2.